# LERİK RAYONUNDA İLK İNTENSİV ALMA NÜMAYİŞ BAĞLARININ SALINMASI

Avropa İttifaqının Azərbaycanın Lənkəran-Astara İqtisadi Rayonuna Dəstəyi

Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

## “EU4LANKARAN” LAYİHƏ XƏBƏRİ

MAY 2024

1-ci hissə



*Açılış tədbiri, Lerik rayonu, Ləhiran kəndi*

Böyük məmnunluq hissiylə Lənkəran-Astara İqtisadi Rayonunun Lerik rayonunda ilk intensiv nümayiş alma bağlarının uğurla salındığını bildiririk. Bu eksperimental bağlar 6 kənddən (Ləhiran, Divağac, Hiveri, Gürdəsər, Lədulan və Vistan) ibarət 2,5 hektar ərazini əhatə edir. “Avropa İttifaqının Azərbaycanın Lənkəran-Astara İqtisadi Rayonuna Dəstək” layihəsinin bu təşəbbüsünün məqsədi alma yetişdirmə texnikalarını təkmilləşdirmək və rayonda kənd təsərrüfatının inkişafını dəstəkləməkdir.

Alma bağlarının açılış tədbiri 2 aprel 2024-cü il tarixində Ləhiran kəndində 100 fermerin iştirakıyla baş tutub. Tədbirdə həmçinin Lerik Rayon İcra Hakimiyyəti başçısının müavini, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Lənkəran üzrə KOB dostu, Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun Lənkəran Stansiyasının direktoru və Lənkəran Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru iştirak edib. Tədbir meyvə və tərəvəz üzrə dəyər zəncirinin rəqabət qabiliyyətini artırmaqla rayonda dayanıqlı iqtisadi inkişafı təşviq etmək üçün əhəmiyyətli rol oynadı.

Açılış mərasimindən sonra Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun Quba filialının iki mütəxəssisi fermerlərə almanın əkilməsi və becərilməsiylə bağlı praktiki təlim keçib. Təlimdə optimal əkin yerlərinin seçilməsi, torpağın əkin üçün hazırlanması, alma tinglərinin düzgün əkilməsi texnikası (tinglər arasındakı məsafə, dərinlik və s.), effektiv suvarma üsullarının tətbiqi, zərərvericilərə və xəstəliklərə qarşı mübarizə, alma ağaclarının budama texnikası, məhsul yığımından sonra saxlama təcrübələri və s. mövzular əhatə olunub. Aparılan torpaq testləri də fermerlərə sadə şəkildə izah edilib.



*Alma tingləri*

# “EU4LANKARAN” LAYİHƏ XƏBƏRİ



*Qubadan gələn mütəxəssislər tərəfindən keçirilən təlim*

Bu təşəbbüs çərçivəsində 5 tanınmış beynəlxalq kommersiya sortundan 2010 alma tingi yeddi yerli fermerə paylanıb. Seçilmiş “Starkrimson”, “Pink Lady”, “Golden Delicious”, “Qala” və “Granny Smith” sortları rayondakı iqlimə və bazar tələbatına uyğunlaşmasına görə diqqətlə seçilib. Planlaşdırmadan əvvəl hər sahədən torpaq nümunələri götürülüb və sınaqdan keçirilib. Daha sonra fermerlər üçün torpaq sınağının nəticələrinə əsasən seçilmiş hər sort üçün qulluq və becərmə texnikası cədvəli hazırlanıb. Eyni zamanda, qulluq texnikası haqqında məlumat vermək və fermerlərin suallarını cavablandırmaq üçün fermerlər və mütəxəssislərlə WhatsApp qrupu yaradılıb. Tədqiqat İnstitutunun mütəxəssislərinin səfərləri ilə yanaşı, layihənin bağçılıq üzrə eksperti tərəfindən tez-tez monitorinqlər aparılıb. Nümayiş alma bağlarında tinglərin böyüməsini müşahidə etmək, təhlil üçün məlumat toplamaq və gələcəkdə ən uyğun sortları seçmək üçün müntəzəm olaraq monitorinq aparılacaq.



*Torpaq təhlili hesabatının fermerlərə izah edilməsi*

Nümayiş bağları əməkdaşlığın əsasını qoyub, Lerik Alma İstehsalçıları Qrupu formalaşdırılıb və rayonda alma dəyər zənciri üçün əməkdaşlıq mərkəzi yaradılır. Nümayiş bağı Hiveri kəndində yerləşən və qrupun üzvü olan Tələt Vəliməmmədov intensiv alma bağlarının salınmasını torpaq ərazisi məhdud olan dağlıq rayon üçün çox münasib hesab edir. Bu təşəbbüs təkcə yerli fermerlərə müasir kənd təsərrüfatı təcrübələri təqdim etmir, həm də hər üzv multiplikatora çevrildiyi və biliklərini paylaşdığı üçün daha geniş ictimaiyyəti məlumatlandırmağa xidmət edir. Bu İntensiv Nümayiş Alma Bağlarının salınması sübut edir ki, layihə komandası, tədqiqat institutu, DAİM, yerli icra hakimiyyəti orqanları və fermerlər arasında uğurlu tərəfdaşlıq yerli fermerlərin innovativ əməkdaşlıq və dayanıqlılığını inkişaf etdirərək, ortaq rifaha səbəb olur.



*İlk tingin əkilməsi*

“Avropa İttifaqının Azərbaycanın Lənkəran-Astara İqtisadi Rayonuna Dəstəyi” layihəsi ilə bağlı yeniliklər üçün bizi izləməyə davam edin.

*Bu material Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanmışdır. Məzmun üçün yalnız layihə məsuliyyət daşıyır və Avropa İttifaqının fikirlərini əks etdirmir. Layihə “WeGlobal”ın rəhbərlik etdiyi konsorsium tərəfindən həyata keçirilir.*